**UOT: 792.**

**Arzu Quliyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: arzuhasanova9518@gmail.com**

# AZƏRBAYCAN TEATR SƏNƏTİNİN ƏSASLARI VƏ MUSİQİ

Əsrlər boyu Azərbaycan musiqisi, onun ifaçılığı inkişaf etdikcə, bu haqda çoxsaylı elmi əsərlər, risalələr yaranmışdır. Azərbaycan musiqi tarixi və onun nəzəriyyəsi çoxəsrlik tariximizin tərkib hissəsi hesab olunur. Musiqi dilimizin vacib xüsusiyyətlərindən biri də onun melodik tərkibə sahib olmasıdır. Azərbaycanda teatr musiqisinin inkişafı prosesi də tamaşalarda istifadə olunan müasir musiqinin əldə etdiyi yüksək nailiyyətlərlə bağlıdır. Amma öncə Azərbaycan teatr musiqisinin köklərinin gedib-çıxdığı xalq mərasimləri və tamaşalar, oyun və təqvim mərasimləri, şəbih və kukla tamaşaları haqqında danışmaq gərəkdir.

Xalq tamaşalarında, oyunlarında, mərasimlərdə istifadə olunan nəğmələr, bizə köklərimizin musiqiyə nə dərəcədə bağlı olduğunu və bu hər iki sənətin bir-birindən ayrılmaz qarşılıqlı əlaqədə olduğunu sübut edir. Çünki hər hansı bir xalq tamaşasını, xalq oyunlarını və ya mərasimlərini musiqisiz təsəvvür etmək mümkün deyil. Musiqi tamaşada oynayan aktyorun ifadə etdiklərini bu və ya digər şəkildə vurğulayır. Tədqiqat zamanı görürük ki, xalq oyunlarında istifadə olunan deyişmələr, atmacalar, tapmacalar və s. hər biri xüsusi intonasiya və zümzümə ilə dilə gətirilir. Beləliklə, deyə bilərik ki, müxtəlif mahnılar, rəqs havaları, ağılar, muğamlar – bunların hamısı mərasimləri parlaq və təsirli edərək, ilk tamaşa formalarının, sonralardan isə həmçinin peşəkar teatrın yaranmasında böyük rol oynamışdır.

Burada təqvim mərasimlərindən olan Novruz bayramı zamanı xalq arasında keçirilən “Kosa-kosa oyunu”nunda musiqi və ritmin müstəsna rolunu xüsusilə qeyd etmək istərdik. Sözügedən oyunda istifadə edilən yarıreçitativ seyrəksaqqal Kosanın “ədəbazlığ”ını təsvir edir. Bu reçitativ bir-birinin ardınca Kosanın özü və onun köməkçisi, Keçəl tərəfindən oxunur. Məxsusi ritm olmadan bu səhnəciklər öz cəlbediciliyini itirərdi. Novruz bayramında oynanılan digər oyun növü isə “Qurşaqtutma” oyunudur. Azərbaycan meydan oyunları arasında uzun müd-

dət özünəməxsus yer tutmuş Zorxana səhnələrində bu gün şou xüsusiyyətləri daşıyan müasir idman yarışlarında görə bildiyimiz məqamlar az deyildi. Burada güləşçilər, pəhləvanlar qoşa zurnanın cəsarət, güc aşılayan zil səsiylə, zərb alətlərinin gurultulu sədası altında meydana gəlir, igid cavanları oyuna çağırırdılar. Belə bir məqamda musiqi sanki meydan tamaşasının bir obrazına çevrilir, lazımi atmosferin yaradıcısı kimi çıxış edir.

Mahnının rol oynadığı bir digər təqvim-mərasim tamaşalarına "Sayaçı" oyununu misal çəkmək olar. Adətən köçəri maldarlıq əsasında yaranmış və xalqın geniş kütlələri arasında ənənəvi ayin olaraq geniş yayılmışdır. M.Arif bu oyun haqqında öz tədqiqatında belə qeyd etmişdir: "Hər il bahara 50 gün qalmış çobanlar özləri ilə bir neçə qoyun, quzu (çox zaman onları bu heyvanların dərisini geyinmiş insanlar əvəz edirdi) və süd məhsulları (süd, qaymaq, pendir) götürüb kəndbəkənd gəzərək maldarlıq mahnıları – "sayalar"ı oxuyurdular. Onlar oxumaqlarını oyunlarla, rəqslərlə və özləri ilə gətirdikləri məhsulları göstərməklə təbiətin oyanmasını, onun səxavətini və yaxşı məhsulu mədh edirdilər. Sonda isə çobanlar bu məclisin əsas aparıcı siması – "qəhrəmanı" kimi özlərini tərifləyirdilər" (1).

Bu baxımdan, deyə bilərik ki, musiqi sənətinin estetik və entuziastik təsiri ilə oyunun düşünülmüş və məntiqi başlanğıcının birləşməsi teatrın cövhərini təşkil edir. Sözügedən təsirin öyrənilməsi bütövlükdə teatrşünaslıq elmi üçün əhəmiyyətli olduğundan, Azərbaycan teatr sənətinin inkişafında fars tipli meydan tamaşalarının, yuğ mərasimlərinin, şəbeh tamaşalarının təşəkkülü prosesində musiqinin rolunun tədqiqi bizə faydalı görünür.

## Ədəbiyyat siyahısı:

1. Kərimova Nailə "Azərbaycan Teatr Musiqisinin İnkişaf Mərhələləri". Bakı: Bayramoğlu, 2011, 960 səh.

**Tezisin redaksiyaya daxil olma tarixi: 10. 01. 2022**

**Tezisi çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fəridə Cəlilova**